# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№367/2** **30 iyul 2024-cü il**

**“Audit meyarları” barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.2.5-ci "Auditor xidmətinin effektivlik meyarlarının hazırlanması" bəndinin icrasını təmin etmək, habelə müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək məqsədilə işçi qrupu – Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Sədrin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Qoşqar Əhmədov tərəfindən hazırlanmış “Audit meyarları”na dair materialın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Audit meyarları”na dair material bəyənilsin və tətbiqi məqsədəmüvafiq hesab edilsin (əlavə olunur).
2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə edilsin ki, öz fəaliyyətlərində “Audit meyarları”ndan istifadə edilməsini diqqət mərkəzində saxlasınlar.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, 2025-ci ilin I rübündə auditor təşkilatları və sərbəst auditorlar üçün “Audit meyarları” mövzusunda seminarın keçirilməsi təmin edilsin.
4. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, “Audit meyarları”na dair materialın auditorların 2025-ci il üzrə ixtisasartırma kurslarının tədris proqramına daxil olunması təmin edilsin.
5. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində “Audit meyarları”na dair materialın auditor təşkilatları və sərbəst auditorlara elektron qaydada göndərilməsi təmin edilsin.
6. Bu qərarın və “Audit meyarları”na dair materialın mətnləri Auditorlar Palatasının internet səhifəsində və “auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.
7. Bu qərarın mətni Azərbaycan, ingilis və rus dillərində Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**